Botschaft
der Bundesrepublik Deutschland
Baku

Adresse: ISR Plaza 69 Nizami Street AZ 1005 Baku
Post:P.O. Box 28/29 AZ 1005 Baku
Telefon:00994-12-4654127
Telefax: 00994-12-4654125
Email: visa@baku.diplo.de
Webseite: www.baku.diplo.de

Aktuallaşdırılmışdır: May 2018-cı il

# Almaniya və Azərbaycan arasında sənədlərin təsdiqinə dair qaydalar haqqında məlumat vərəqəsi

Almaniya ilə Azərbaycan arasında sənədlərin təsdiqinə dair müqavilə ilə nizamlanmış qayda mövcud deyildir. Bu praktikada aşağıdakı kimi təzahür edir:

**1) Alman sənədlərini Azərbaycan idarələrinə təqdim etmək üçün:**
Almaniya Federativ Respublikasının Səfirliyi Azərbaycan idarələrinə təqdim etmək üçün alman dövlət sənədlərinin həqiqiliyini (məs.: leqalizasiya, apostil), həmin sənədlərin surətlərinin təsdiqini, tərcümələrin düzgünlüyünü təsdiq edə bilməz.

Azərbaycan idarələrinə təqdim etmək üçün nəzərdə tutulmuş alman sənədlərinin həqiqiliyi yalnız Azərbaycan Respublikasının Berlindəki Səfirliyi tərəfindən leqalizasiya şəklində həyata keçirilə bilər.

Məlumat üçün aşağıdakı ünvana müraciət etməyiniz xahiş olunur:

Azərbaycan Respublikasının Səfirliyi
Konsulluq şöbəsi
Hubertusallee 43
14193 Berlin

E-Mail: berlin_consul@mfa.gov.az; berlin@mission.mfa.gov.az
Website: http://www.azembassy.de
Tel.: +49 30 206 480 63
Fax: +49 30 219 161 51

**2) Azərbaycan sənədlərini alman idarələrinə təqdim etmək üçün:**
Azərbaycan sənədləri inzibati yardım çərçivəsində Alman Səfirliyi tərəfindən yoxlanılır. Bu prosedur ilə bağlı daha ətraflı məlumatı səfirliyin internet səhifəsində alman dilində yerləşdirilən “Sənədlərin yoxlanmasına dair məlumat vərəqəsindən” və ya email vasitəsilə sorğu göndərərək əldə edə bilərsiniz: rk-1@baku.diplo.de